# Əhalinin sağlamlığının qorunması istiqamətində mühüm tədbirlər həyata keçirilir

*Dövlət başçısının Sərəncamı ilə modul tipli 6 xəstəxananın quraşdırılmasına dövlət büdcəsindən 14,8 milyon (on dörd milyon səkkiz yüz min) manat ayrılıb*









Əhalinin sağlamlığının qorunması, dünya standartlarına uyğun tibbi yardımla təmin olunması ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətin prioritetlərindəndir. Bu gün dünyada yayılan yeni növ koronavirus infeksiyasının coğrafiyasının genişlənməsi ölkəmizdə də bu xəstəliyə yoluxma hallarının qarşısının alınması məqsədilə profilaktik tədbirlərin gücləndirilməsini zəruri edir. Ölkəmizdə koronavirusa qarşı aparılan tədbirlər davam edir, sanitar epidemioloji vəziyyət ciddi nəzarət altında saxlanır, xəstəliyin yayılma coğrafiyasının geniş miqyas aldığını nəzərə alaraq, qabaqlayıcı tədbirlər həyata keçirilir. Bildiyimiz kimi, Nazirlər Kabineti yanında Operativ Qərargah yaradılıb. Azərbaycan Respublikasında əhalinin sağlamlığının qorunması və koronavirus infeksiyasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 19 mart tarixli Fərmanı ilə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradıldı və dövlət başçısının Sərəncamı ilə Azərbaycan Respublikasında koronavirus infeksiyasına qarşı həyata keçirilən səhiyyə tədbirləri üçün Koronavirusla Mübarizəyə Dəstək Fonduna dövlət büdcəsindən ilkin olaraq 20,0 (iyirmi) milyon manat ayrıldı.

Hazırda ölkədə əhalinin "COVID-19"-a dair müayinələrinin keçirilməsi ilə bağlı işlər davam etdirilir, müvafiq laboratoriyalar qurulur, habelə tibb müəssisələri zəruri ləvazimat və preparatlarla təchiz edilir. Görülən bu və ya digər tədbirlərlə yanaşı, Azərbaycan Respublikası Prezidenti 7 aprel tarixində koronavirus pandemiyası ilə mübarizənin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən, koronavirus pandemiyasına qarşı mübarizə sahəsində ölkədə həyata keçirilən səhiyyə tədbirləri çərçivəsində tibb müəssisələrinə və tibbi avadanlığa artan tələbatın qarşılanması və infeksiyaya yoluxmuş xəstələrin müalicəsinin səmərəli təşkili məqsədilə hər birində 200 çarpayı olan modul tipli 6 (altı) xəstəxananın quraşdırılması məqsədilə dövlət büdcəsindən 14,8 milyon (on dörd milyon səkkiz yüz min) manat ayrılıb.

Onu da vurğulmamaq yerinə düşər ki, hazırda ölkəmizdə 20-dən çox xəstəxanada koronavirus xəstələri müalicə alır. Təbii ki, bu günlərdə istifadəyə verilən dünya standartlarına cavab verən "Yeni klinika" da bu xəstəxanalar sırasındır. "Bu il martın əvvəlində Mənim iştirakımla bölgələrdə açılmış xəstəxanalar da koronavirus xəstələrinin ixtiyarına verildi" - deyə çıxışlarının birində qeyd edən Azərbaycan Prezidenti Qazax, Goranboy və Şəmkir şəhərlərində yerləşən ən müasir xəstəxanaların koronavirus xəstələrinin müalicəsi ilə məşğul olduğunu bildirib: "Bu üç xəstəxanada çarpayıların sayı təqribən 500 ətrafındadır. Beləliklə, cəmi bir ay ərzində mindən çox çarpayılıq, ən müasir standartlara uyğun tibbi müəssisələr istifadəyə verildi və orada koronavirus xəstələri müalicə alırlar".

Bütün bunlar dövlət başçısının əhalinin sağlamlığının təmin olunması məsələsinə xüsusi diqqətlə yanaşdığı, eləcə də Azərbaycan dövlətinin koronavirus infeksiyasına yoluxma hallarının qarşısının alınması, insanların sağlamlığının qorunması istiqamətində mühüm tədbirlər həyata keçirdiyini bir daha təsdiq edir.

***Nəzakət ƏLƏDDİNQIZI***